*“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 8 noyabr 2014-cü il | № 85 (1902) | Qiyməti 25 qəpik

## Ali Baş Komandan İlham ƏLİYEV:

# “Dağlıq Qarabağda - Xankəndidə, Şuşada bayraq meydanları yaradılacaq, Azərbaycanın üçrəngli bayrağı həmin ərazilərdə daha əzəmətlə dalğalanacaq”

***Noyabrın 9-u öz Vətənini, millətini, dövlətini sevən hər bir soydaşımız üçün əziz bayramlardan biridir. Bu gün Dövlət bayrağımız prospekt və küçələrimizi bəzəyir, paytaxtımızın ən görkəmli yerində ucaldılmış dünyanın ən yüksək bayraq direyində üçrəngli bayrağımız daha əzəmətlə dalğalanır, hər birimizin köksünü qabardır. Bu gün təkcə Azərbaycanda deyil, dünyanın hər yerində qəlbi tarixi Vətənilə döyünən soydaşlarımız müstəqil Azərbaycanın Dövlət bayrağı gününü böyük ehtiramla qeyd edir, müxtəlif ölkələrdə yaşasalar da, yenə əl-əl, çiyin-çiyinə verib bir bayraq altına yığışır. Bu gün harada azərbaycanlı varsa, orada Azərbaycan var. Azərbaycan olan yerdə onun üçrəngli bayrağı var!***




Azərbaycan Respublikasının Dövlət gerbi və Dövlət himni kimi, Dövlət bayrağı da Azərbaycan Respublikasının müstəqilliyini təcəssüm etdirən rəsmi dövlət rəmzidir. Dövlət atributu olaraq Azərbaycan bayrağına ehtiram göstərilməsi ölkə vətəndaşlarının müqəddəs borcudur.

Bu rəmzlərə hörmət və məhəbbət körpə yaşlarından ailədə, təhsil aldıqları müəssisələrdə və cəmiyyətdə aşılanır. Əslində dövlət rəmzlərinə məhəbbət dövlətin, dövlətçiliyin özünə məhəbbət deməkdir. İnsanlar bu rəmzləri sevirlərsə, deməli, öz dövlətlərini sevirlər və sevdikləri dövlətin keşiyində ayıq-sayıq dayanmağa, onu canı və qanı bahasına qorumağa hazırdırlar. Azərbaycan əsgəri Vətənin suverenliyinin və ərazi bütövlüyünün müdafiəsi kimi şərəfli missiyanı öz üzərinə götürərkən Dövlət bayrağına and içir. Bəli, bayrağımızın Azərbaycan Respublikasının dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində dalğalanması, ən mötəbər məclislərdə və mərasimlərdə, rəsmi tədbirlərdə və yarışlarda qaldırılması hər bir azərbaycanlının qəlbini qürur hissi ilə doldurur.

Azərbaycanın Dövlət bayrağı ilk dəfə Azərbaycan Xalq Cümhuriyyətinin 9 noyabr 1918-ci il tarixli qərarı ilə milli bayraq kimi qəbul edilmişdir. Sentyabrın 15-də Qafqaz İslam Ordusu və Azərbaycan Milli Ordusunun birləşmələri Bakını erməni-bolşevik işğalından azad etdikdən sonra hökumət Bakıya köçüb və müstəqil Azərbaycan hökumətinin qəbul etdiyi ilk qərarlardan biri milli bayrağın qəbul edilməsi olub. "Milli bayraq haqqında" Azərbaycan hökuməti qərarları dəftərindən 9 noyabr 1918-ci il tarixli çıxarış"da deyilir:

1. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan dövlətinin suverenliyi rəmzidir.

2. Azərbaycan Respublikasının Dövlət bayrağı eni və uzunluğu bərabər olan üçrəngli üfüqi zolaqdan ibarət düzbucaqlı parça şəklindədir: üst zolaq mavi rəngdə, orta zolaq qırmızı rəngdə, aşağı zolaq yaşıl rəngdədir. Bayrağın hər iki üzündə qırmızı zolağın ortasında ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri vardır.

İlk dəfə müstəqil Azərbaycanın dövlət bayrağındakı üç rəngin ifadə etdiyi və XX əsrin əvvəllərindəki milli istiqlal ideologiyamızın üç təməl prinsipini təşkil edən "Türkçülük, islamçılıq və müasirlik" üçrəngli bayraq ideyasını Azərbaycan istiqlaliyyətinin ideoloqlarından olan Əli bəy Hüseynzadə gündəmə gətirib.

Xatırladaq ki, Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıqdan sonra dövlət bayrağı dəyişdirilib. Tariximizin sovet dövründə o, Azərbaycan Sovet Sosialist Respublikasının bayrağı ilə əvəz edilmişdi. Dağlıq Qarabağ ətrafında cərəyan edən ictimai-siyasi proseslər zamanı ziyalıların təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı qeyri-rəsmi olaraq 1988-ci il noyabrın 17-də Bakıda indiki Azadlıq meydanında qaldırılıb.

Möhtəşəm üçrəngli bayrağımızın rəsmi olaraq ucaldılması dünya miqyaslı dövlət xadimi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan ərazisində Naxçıvan Muxtar Respublikası Ali Sovetinin 1990-cı il 19 yanvar tarixli qərarı əsasında bayraq Naxçıvan Ali Sovetinin binası üzərində ucaldılıb. Həmin qərar səkkiz gün sonra o zamankı ölkə parlamenti - Azərbaycan SSR Ali Soveti tərəfindən ləğv edilsə də, 1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında ümummilli liderin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul olunmuşdu. Yalnız bundan sonra 1991-ci il fevralın 5-də Azərbaycan ictimaiyyətinin tələbi ilə Azərbaycan Respublikasının Ali Soveti Dövlət bayrağı haqqında Qanun qəbul edərək, üçrəngli bayrağa Azərbaycan Respublikasının Dövlət bayrağı statusunu verməyə məcbur olmuşdu. 1991-ci il oktyabrın 18-də müvafiq Konstitusiya aktı ilə dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edərkən onun dövlət rəmzlərini, o cümlədən Dövlət bayrağını qəbul edib.

Böyük öndərin layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyev 2007-ci il noyabrın 17-də Bakıda Dövlət Bayrağı Meydanının yaradılması barədə, 2009-cu il noyabrın 17-də isə Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında sərəncam imzalayıb. Bundan sonra hər il noyabrın 9-u respublikamızda Dövlət Bayrağı Günü kimi qeyd olunur.

2007-ci il dekabrın 30-da Bakının Bayıl qəsəbəsində Dövlət Bayrağı Meydanının təməli qoyulub. Meydan üçün seçilmiş yer paytaxtın müxtəlif nöqtələrindən dövlət bayrağının görünməsinə imkan yaradır. Xüsusi layihə əsasında reallaşdırılan tikinti işlərini xarici və yerli mütəxəssislər həyata keçiriblər. İnşa olunmuş dayağın hündürlüyü 162 metr, bünövrəsinin diametri 3,2 metr, bünövrənin üst hissəsinin diametri 1,09 metrdir. Bayrağın eni 35 metr, uzunluğu 70 metr, ümumi sahəsi 2450 kvadratmetr, çəkisi isə təqribən 350 kiloqramdır. Ginnes dünya rekordları təşkilatı 2010-cu il mayın 29-da Azərbaycanın Dövlət bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edib.

Meydanda qurulmuş Azərbaycan Respublikasının gerbi, Dövlət himninin mətni və ölkəmizin xəritəsi qızıl suyuna salınmış bürüncdən hazırlanıb. Bu dövlət rəmzləri Bayraq Meydanının möhtəşəmliyini daha da artırıb, onun görünüşünə əlavə çalarlar qatıb. Prezident İlham Əliyevin təşəbbüsü ilə meydanda Dövlət Bayrağı Muzeyi də yaradılıb. Və bu gün paytaxtımızın müxtəlif yerlərindən nəhəng və möhtəşəm bayrağımızın yüksəkdə dalğalandığını görmək köksümüzü qabardır, qəlbimizi qürur hissilə doldurur.

Hazırda Azərbaycanın müxtəlif bölgələrində də Bayraq meydanları yaradılıb və üçrəngli bayrağımız ucalıqlarda vüqarla dalğalanır.

Bu gün Azərbaycan dövləti kimi, onun rəmzlərinin keşiyində hər bir vətənsevər azərbaycanlının sevdiyi qüdrətli Silahlı Qüvvələrimiz dayanıb. Ölkəmizin sərhədləri boyunca, o cümlədən müharibə vəziyyətində olduğumuz Ermənistanın silahlı bölmələrilə üzbəüz mövqelərdə gecə-gündüz demədən Azərbaycan əsgəri keşikdə dayanır, döyüş növbəsi aparır. Azərbaycan əsgəri həm dövlətimizi, həm də onun bayrağını müdafiə və mühafizə edir. Hətta cəbhə bölgələrində belə Azərbaycanın Dövlət bayrağı üçün ən yüksək sahələrdə yer ayrılıb və dalğalanan bayrağımızı düşmən ordusunun əsgərləri belə müşahidə etmək imkanındadırlar.

Öz dövlət quruluşunu formalaşdırmağı bacarmış xalqlar, ilk növbədə, bu dövlətlərin mövcudluğu ilə iftixar hissi keçirirlər. Bu dövlətlərin bayraqları Birləşmiş Millətlər Təşkilatının möhtəşəm mənzil-qərargahı qarşısında qaldırılıb. İftixar hissi keçiririk ki, bu bayraqlar arasında müstəqil Azərbaycanın Dövlət bayrağı da əzəmətlə dalğalanır.

Bu gün üçrəngli bayrağımızın dalğalanmadığı yer doğma Vətənimizin dilbər guşəsi olan Qarabağdır. İnanırıq ki, Azərbaycan əsgərinin gücü ilə düşmən işğal edilmiş torpaqlarımızı birdəfəlik tərk edəcəkdir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, Dağlıq Qarabağda - Xankəndidə, Şuşada Bayraq meydanları yaradılacaq, Azərbaycanın üçrəngli bayrağı həmin ərazilərdə daha əzəmətlə dalğalanacaq.

**"Azərbaycan Ordusu"**

## 9 Noyabr - Dövlət Bayrağı Günü münasibəti ilə Silahlı Qüvvələrin şəxsi heyətinə

## Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Yoldaş zabitlər, gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər və matroslar!

Sizi 9 Noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.

Xatirəsini həmişə hörmət və ehtiramla yad etdiyimiz xalqımızın ümummilli lideri Heydər Əliyevin sədrliyi ilə 24 il öncə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında milli dövlət dirçəlişi ideyasının həyata keçirilməsi yolunda yekdilliklə mühüm tarixi-siyasi əhəmiyyət kəsb edən qərar qəbul edilərək Azərbaycan Demokratik Respublikasının üçrəngli bayrağı əvvəlcə Naxçıvanda, daha sonra isə Azərbaycan Respublikasının ali qanunvericilik orqanında dövlət bayrağı kimi qəbul edilmişdir. Qədirbilən xalqımız bu tarixi hadisəni heç vaxt unutmur.

Əsgəri şücaət və rəşadət rəmzi olan döyüş bayraqlarını isə möhtərəm Prezidentimiz cənab İlham Əliyev ilk olaraq hərbi hissələrə təqdim etmiş və Azərbaycan əsgərinə bu bayrağı həmişə uca tutmağı arzulamışdır.

İnanıram ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və Nizamnamələrə bundan sonra da sadiq qalacaq, döyüş və mənəvi-psixoloji hazırlıqda yeni uğurlar əldə edəcək və Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi altında üçrəngli Dövlət bayrağımızı Şuşada, Xankəndidə və işğal altında olan digər əzəli torpaqlarımızda dalğalandıracaqsınız.

Sizin hər birinizə şərəfli xidmətinizdə müvəffəqiyyətlər arzulayıram.

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

## Öz müqəddəratını təyinetmə ərazi bütövlüyü prinsipinə zidd olmamalıdır

***Azərbaycan Xarici İşlər Nazirliyi mətbuat xidmətinin rəhbəri vəzifəsini icra edən Hikmət Hacıyev Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanın xalqların öz müqəddəratını təyinetmə prinsipi haqqında söylədiklərinə şərh verib.***

AzərTAc xəbər verir ki, H.Hacıyev xalqların öz müqəddəratını təyinetmə hüququnun beynəlxalq hüququn ali prinsiplərindən biri olduğunu, beynəlxalq hüququn, xüsusilə xalqların öz müqəddəratını təyinetmə prinsipinin siyasiləşdirilməsi və ondan siyasi möhtəkirlik məqsədləri üçün istifadənin qəbuledilməz olduğunu bildirib. "Təəssüf ki, Ermənistanın təcrübəsində biz bunun şahidi oluruq", - deyə o, əlavə edib.

H.Hacıyev bildirib ki, BMT Nizamnaməsində xalqların öz müqəddəratını təyinetmə hüququ müstəmləkəçiliyə qarşı mübarizə, işğal altında olan və öz idarəçiliyi olmayan ərazilərə münasibətdə müəyyən edilib. 1975-ci il Helsinki Yekun Aktında isə deyilir: "BMT Nizamnaməsinin məqsəd və məramları, beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən dövlətlərin ərazi bütövlüyünə həmişə uyğun şəkildə davranaraq, iştirakçı ölkələr xalqların bərabər hüquqlarına və onların öz müqəddəratını təyinetmə hüququna hörmətlə yanaşacaqlar". Göründüyü kimi, öz müqəddəratını təyinetmə ərazi bütövlüyü prinsipinə və BMT Nizamnaməsinə ziddiyyət təşkil etməməlidir. Ərazi bütövlüyü ilə əlaqədar isə Helsinki Yekun Aktında deyilir ki, dövlətlər digər dövlətin ərazisini birbaşa və ya dolayısı zor vasitəsilə hərbi işğal və ərazi əldə etmək obyekti etməməlidirlər. Həmçinin həmin sənəddə bu cür işğal və ya ərazi əldə edilməsinin qanuni hesab olunmayacağı bildirilir.

H.Hacıyev qeyd edib ki, ümumiyyətlə, Ermənistan tərəfindən Azərbaycana qarşı törədilmiş işğal, təcavüz və qanlı etnik təmizləmə əməllərinin fonunda xalqların öz müqəddəratını təyinetmə hüququndan danışmaq yersizdir. Ermənistanın bu əməlləri xalqların öz müqəddəratını təyinetmə hüququnun təməl prinsipləri, mahiyyəti və fəlsəfəsi ilə ziddiyyət təşkil edir.

XİN rəsmisi deyib: "Ermənistan xarici işlər naziri E.Nalbandyan ya bunları bilmir, ya da məqsədyönlü şəkildə beynəlxalq hüquq və xalqların öz müqəddəratını təyinetmə prinsipini siyasi möhtəkirlik obyektinə çevirir ki, bu da çox ciddi təəssüf doğurur.

# “Vətənə, xalqa, dövlətə xidmət bizim ömrümüzün mənasıdır!”

## Müdafiə naziri Ehtiyat Zabit Hazırlığı kursunun məzunları ilə görüşüb

***Noyabrın 5-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Ehtiyat Zabit Hazırlığı kursunu müvəffəqiyyətlə bitirərək Müdafiə nazirinin əmri ilə "leytenant" hərbi rütbəsi verilən gənc zabitlərin növbəti buraxılış mərasimi keçirilib.***

### Ali Baş Komandan İlham ƏLİYEV:

“Bizə hazırlıqlı hərbçilər lazımdır. Bütün sahələrdə yeni gənc kadrların yetişdirilməsi məsələlərinə böyük diqqət göstərilir. Azərbaycan uğurla inkişaf edir. Ölkəmizdə bütün sahələr inkişaf edir. Gənc kadrların hazırlanması prosesi bizim gələcəyimizi şərtləndirən amildir”.



Öncə tədbirdə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın toxunulmazlığı uğrunda həlak olan şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycanın Dövlət himni oxunduqdan sonra Təlim və Tədris Mərkəzinin rəisi polkovnik Nazim Əlibəyov çıxış edərək bildirib ki, ordunun yüksək hazırlığa malik peşəkar, vətənpərvər, intellektual səviyyəli zabit kadrları ilə təmin edilməsi ölkənin xüsusi təyinatlı təhsil müəssisələrinin qarşısında duran ən mühüm vəzifədir. "Bu vacib vəzifənin yerinə yetirilməsində Təlim və Tədris Mərkəzinin zabit-müəllim heyəti də öz bacarıqlarını əsirgəmir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin və Müdafiə Nazirliyi rəhbərliyinin qarşıya qoyduğu mühüm vəzifələri rəhbər tutan məktəbin kollektivi gənc zabitləri hərbin nəzəri və praktik sirlərinə dərindən alışdırmaq üçün bütün imkan və səylərini səfərbər edirlər".

Görüşdə çıxış edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov öncə Ehtiyat Zabit Hazırlığı kursunun növbəti buraxılışının məzunlarını ilk zabit rütbələri almaları münasibətilə təbrik edib.



- Bu əlamətdar gün sizin həyatınızda uzun müddət xatırlanacaqdır, 5 il, 10 il bundan sonra da bu hadisə yaddaşınızda təzələnəcəkdir, - deyə nazir bildirib. - Axı bu gün sizin taleyinizdə mühüm bir mərhələnin bünövrəsi qoyulur: siz zabit vəzifələrinə təyin edilməklə Vətənimizin müdafiə qabiliyyətinin möhkəmlənməsinə dəyərli töhfələrinizi verəcəksiniz. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın hərbi ənənələrinin qorunmasına önəm verərək hakimiyyətinin bütün dövrlərində gənclərimizin hərbə marağının gücləndirilməsinə ciddi diqqət yetirmişdi. O qeyd edirdi ki, zabit olmaq, hərbi vəzifə daşımaq gənclərimizin ən müqəddəs vəzifələrindən biri olmalıdır. Doğrudan da, zabit peşəsi ən müqəddəs və vacib peşələrdən biridir, çünki bu peşənin əsas mahiyyəti Vətəni qorumaqdan ibarətdir.

Müasir Azərbaycan dövlətinin və ordumuzun formalaşmasında ulu öndərin müstəsna xidmətlərini xatırladan general-polkovnik Zakir Həsənov vurğulayıb ki, ordu sıralarında xidmət edən gənclərimiz Heydər Əliyevin irsini dərindən öyrənməli və böyük öndərin mənalı ömür yolunu özlərinə nümunə bilməlidirlər. "Möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, Heydər Əliyevin bütün fəaliyyəti Azərbaycan xalqına və dövlətinə xidmət etməkdən ibarət olub".

- Bu gün də ordu quruculuğu siyasəti dövlət rəhbərliyinin diqqət mərkəzindədir, - deyə nazir hazırkı mərhələdə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev tərəfindən ordu quruculuğu strategiyasının uğurla inkişaf etdirildiyini diqqətə çatdırıb. - Hərbi büdcəmiz ildən-ilə artır, ordunun maddi-texniki bazası daha da möhkəmlənir. Müasir silah və hərbi texnikaların alınması ilə yanaşı, hərbi qulluqçuların sosial şəraitinin yaxşılaşdırılması istiqamətində də önəmli tədbirlər həyata keçirilir. Müxtəlif bölgələrdə müasir hərbi şəhərciklər inşa edilir və zabit-gizir ailələri rahat, hərtərəfli şəraitə malik olan mənzillərlə təmin edilir.



Vətənimizin ciddi sınaqlar qarşısında qaldığını və torpaqlarımızın 20 faizinin illərdən bəri işğalda qaldığını diqqətə çatdıran Müdafiə naziri general-polkovnik Zakir Həsənov birmənalı şəkildə vurğulayıb ki, bu problemin həll edilməsi üçün əsas məsuliyyət Silahlı Qüvvələrin şəxsi heyətinin üzərinə düşür. "Atəşkəs rejiminin imzalanmasından 20 ildən artıq vaxt ötməsinə baxmayaraq, hər gün cəbhədə atəş səsləri eşidilir, postlarımız, səngərlərimiz, yaşayış məntəqələrimiz, mülki əhalimiz atəşə tutulur. Ancaq Silahlı Qüvvələrimizin bölmələri onları qabaqcadan aşkarlayır, neytrallaşdırır və düşmən hər dəfə itkilər verərək geri çəkilir. Azərbaycan neçə müddətdir ki, Qarabağ problemini həll etmək üçün səylərini əsirgəmir. Çox təəssüf ki, ikili standartlara yol verən nüfuzlu dövlətlərin və beynəlxalq qurumların rəsmiləri işğalçı Ermənistana təsir göstərməkdənsə, beynəlxalq hüquq çərçivəsində tanınan ərazilərimizin işğaldan azad edilməsinə göz yumurlar. Buna görə də Azərbaycan-Ermənistan tərəfləri arasında mövcud olan Dağlıq Qarabağ problemi illər uzunu həll edilməmiş qalır. Belə bir vəziyyətdə Azərbaycan dövləti münaqişənin həlli istiqamətində bütün vasitələrdən istifadə etməli, hətta son vasitə olaraq hərbi güc yolu ilə öz qanuni ərazilərini işğaldan azad etməlidir. Əlbəttə, bu gün siyasi-iqtisadi, həmçinin hərbi potensialına görə regionda lider olan ölkəmiz bu məsələni həll etmək üçün yetərli gücə malikdir. Hörmətli Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan heç vaxt öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəkdir".

- Dünyada ikili standartların mövcud olduğu bir dövrdə biz öz taleyimiz haqqında özümüz düşünməli və narahat olmalıyıq, - deyib Müdafiə naziri. - Hər kəs Vətəni, xalqı və dövləti qarşısında məsuliyyət hissini dərk etməlidir. Dövlətin mənafeyi hər şeydən üstün tutulmalı, milli maraqlarımız qorunmalıdır. Bildiyiniz kimi, BMT və ATƏT kimi nüfuzlu beynəlxalq qurumlar Dağlıq Qarabağ probleminin həll edilməsi üçün bir-birinin ardınca qətnamələr qəbul etmişlər. Amma bu vaxta kimi həmin qətnamələrin heç birinə məhəl qoyulmur. Bəzən nüfuzlu dövlətlər insan hüquqları pərdəsi altında istədikləri ölkənin daxili işlərinə müdaxilə edirlər. Çox təəssüf ki, Azərbaycanın qanuni torpaqları, beynəlxalq hüquqla tənzimlənmiş ərazilərimiz işğaldan azad edilmir və heç bir dövlət Ermənistana təsir etmək haqqında düşünmür. Onda buradan belə nəticə hasil olur ki, bütün diplomatik danışıqların və sülhün arxasında hərbi güc dayanır. Amma qarşı tərəf, yəni, Ermənistan rəsmiləri anlasınlar ki, Azərbaycanın mübarizəsi haqq-ədalət mübarizəsidir və buna görə də biz mütləq qalib gələcəyik.



Bu ilin iyul-avqust aylarında düşmənlə təmas xəttində hadisələrin gərginləşdiyini xatırladan Müdafiə nazirinə görə, bu gün ölkəmizin ordu quruculuğu sahəsində apardığı önəmli islahatlar düşmənlərimizi qıcıqlandırmaya bilməzdi. "Bu hadisələr bir daha ordumuzun yetərli hərbi gücə malik olduğunu sübuta yetirdi. İtkilərlə üzləşən düşmən bir daha dərk etdi ki, artıq Azərbaycan real hərbi gücə malikdir".

Ötən qısa dövrdə dövlətimizin, şəxsən Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordu quruculuğunun daha da inkişaf etdirilməsinə göstərdiyi diqqət və qayğıdan geniş söhbət açan general-polkovnik Zakir Həsənov vurğulayıb ki, son vaxtlar orduda həyata keçirilən keyfiyyət yenilikləri ölkəmizin müdafiə qabiliyyətinin daha da möhkəmlənməsinə təkan verib. "Azərbaycan Ordusu gündən-günə hərbi qüdrətini artırır, çünki ölkəmiz bu gün siyasi və iqtisadi uğurlarına görə regionda lider dövlətdir. İqtisadiyyatımız inkişaf etdikcə, yeni və mühüm iqtisadi layihələrə imza atırıq. Artıq inkişaf etmiş dövlətlər Azərbaycanı etibarlı tərəfdaş kimi qəbul edir və bizimlə hesablaşırlar. Bu bir həqiqətdir ki, dinamik iqtisadi inkişafa malik olan dövlət güclü ordu yaratmağa da qadir olacaqdır. Xalqımızı tam əmin etmək istərdim ki, Azərbaycan Silahlı Qüvvələri yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olmaqla qarşısında dayanan mühüm vəzifəni, yəni, torpaqlarımızın işğaldan azad edimməsi vəzifəsini istənilən anda yerinə yetirməyə qadirdir".



Çıxışını gənc zabitlərə müraciətlə davam etdirən nazir qeyd edib ki, Azərbaycan Ordusunun hər bir zabiti hərbi xidmətdə və həyatda şəxsi nümunə olmalıdır.

- Silahlı Qüvvələrin hər bir qulluqçusu “Vətənə, xalqa, dövlətə xidmət bizim ömrümüzün mənasıdır” - devizini dərk etməli, bu amalla yaşamalı və vicdanla xidmət etməlidir, - deyə general-polkovnik Zakir Həsənov bildirib. - Tabeliyinizdə olan əsgərləri Vətənimizə, dövlətimizə sədaqətlə xidmət etməyə ruhlandırmaq sizin əsas vəzifənizdir. Sizin hər biriniz xalqımıza və dövlətimizə şərəflə, vicdanla və nizamnamələrin tələblərini yüksək səviyyədə yerinə yetirməklə xidmət etməlisiniz. Əsgərlərin vətənpərvər döyüşçülər kimi hazırlanmasında siz bütün səmərəli vasitələrdən istifadə etməli, şəxsi heyətə yüksək döyüş əhval-ruhiyyəsi aşılamalısınız. Bir həqiqəti unutmayın ki, ən müasir silah və texnikanı idarə edən əsgərdir. Buna görə də orduda gənclərimiz yüksək mənəvi dəyərlər ruhunda tərbiyə edilməlidir. Orduda xidmət edən gənclərə xalqımızın tarixi irsi öyrədilməklə yanaşı, zaman-zaman Azərbaycanın üzləşdiyi soyqırımı hadisələrinin mahiyyəti aşılanmalı və düşmənlərimizin törətdikləri faciələr xatırlanmalıdır. Mənə elə gəlir ki, ötən əsrin həm əvvəllərində, həm də sonlarında erməni daşnaklarının Vətənimizə, xalqımıza qarşı törətdikləri əsl soyqırımı siyasətinin acı nəticələri, məsələn 1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilərin Xocalıda günahsız əhaliyə qarşı görünməmiş vəhşilikləri əsgər heyətinə geniş mahiyyəti ilə təbliğ edilməlidir. Hər birimiz düşmənlərimizi yaxşı tanımalıyıq və hər an günahsız vətəndaşlarımızın, şəhid olan döyüşçülərimizin intiqamını almaq hissi ilə yaşamalıyıq.

Müdafiə naziri çıxışının sonunda gənc zabitlərə hərbi xidmətlərində uğurlar arzulayıb və əmin olduğunu bildirib ki, hər bir zabit üzərinə düşən vəzifənin məsuliyyətini dərindən hiss edərək ölkəmizdə ordu quruculuğunun inkişaf etdirilməsində öz köməyini əsirgəməyəcəkdir. "Unutmayın ki, xalqımız sizin hər birinizdən şəxsi fədakarlıq, mətanət, mərdlik və qəhrəmanlıq nümunəsi gözləyir. Bu gün Silahlı Qüvvələrimizin şəxsi heyətinin xalqımız və dövlətimiz qarşısında müqəddəs bir borcu vardır: biz erməni işğalçıları tərəfindən zəbt edilmiş torpaqlarımızı azad etməliyik və mütləq azad edəcəyik. Sizə Vətənə müqəddəs xidmətinizdə uğurlar arzulayırıq".

Sonda gənc leytenant Kənan Məmmədzadə çıxış edərək təlim müddətində vacib hərbi vərdişlərə alışdıqlarını qeyd edib və silahdaşları adından söz verib ki, dövlətin və ordu rəhbərliyinin qarşıya qoyduğu vəzifələri əzmlə yerinə yetirəcəklər.

**Mayor**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikasının Müdafiə naziri Türkiyənin Xüsusi Təyinatlı Qüvvələr komandanını qəbul edib





***Noyabrın 6-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov işçi səfərilə ölkəmizə gələn Türkiyə Respublikası Silahlı Qüvvələri Baş Qərargahının Xüsusi Təyinatlı Qüvvələr komandanı diviziya generalı Zekai Aksakallını qəbul edib.***

Müdafiə naziri general-polkovnik Zakir Həsənov qonağı salamlayaraq Azərbaycanla Türkiyə arasında hərbi sahədə əməkdaşlığın daim yüksələn xətt üzrə artdığını, strateji tərəfdaşlıq və qardaşlıq münasibətləri əsasında qurulduğunu və əlaqələrin davamlı olduğunu qeyd edib.

Müdafiə naziri bölgədəki hərbi-siyasi vəziyyətə toxunaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin regional sabitliyə əsas təhlükə yaratdığını, problemin beynəlxalq hüquq norma və qaydalarına uyğun həllinə nail olunmasının vacibliyini diqqətə çatdırıb.

Azərbaycan Respublikası Xüsusi Təyinatlı Qüvvələri ilə tanışlıqdan sonra diviziya generalı Z.Aksakallı onların hazırlığı, təchizatı və təminatına yüksək qiymət verərək, iki ölkənin xüsusi təyinatlı qüvvələri arasında qarşılıqlı təcrübə mübadiləsinin, təlim və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyini, bu istiqamətdə Türkiyənin Azərbaycanın tərəfdaşı və daim yanında olduğunu qeyd edib.

Sonra Azərbaycan və Türkiyə xüsusi təyinatlı qüvvələri arasında əlaqələrin perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Görüşdə Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İsmail Alper Coşqun iştirak edib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# "Əsas məqsəd orduda şəxsi heyətin psixoloji hazırlığını təkmilləşdirməkdir"

***Noyabrın 6-da Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyevin rəhbərliyi ilə Təlim və Tədris Mərkəzində hərbi psixoloqların təkmilləşdirmə kursuna hazırlıq keçirilib.***




Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının alimləri, həmçinin ordumuzun hərbi təhsil müəssisələrində çalışan peşəkar zabit və müəllim heyəti iştirak edib. Toplantıda çıxış edən general-leytenant K.Vəliyev bildirib ki, Qarabağ müharibəsi dövründə ordumuzun mənəvi-psixoloji hazırlığı sahəsində kifayət qədər peşəkar zabitlər olub. Lakin bir müddət sonra Müdafiə Nazirliyində tərbiyə işinin təşkilində ciddi nöqsanlara yol verilib. Hətta, bu sahəni mükəmməl bilən zabitlər hansısa səbəblərdən vəzifələrdən kənarlaşdırılıb.

Nazir müavininin sözlərinə görə, ordumuzda hərbi psixoloqlara hər zaman ehtiyac duyulub. Ancaq Müdafiə naziri cənab general-polkovnik Zakir Həsənovun diqqət və qayğısı sayəsində hazırda bu vəzifələr təkmilləşdirilir. Hər bir bölmənin yüksək döyüş hazırlığında təlim-tərbiyənin mühüm əhəmiyyət kəsb etməsi mütləqdir.

Tədbirdə çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının sosiologiya və psixologiya bölməsinin rəhbəri, fəlsəfə elmləri doktoru Rəfiqə Əzimova ölkə başçısı cənab İlham Əliyevin dördüncü Humanitar forumdakı çıxışından bəhs etdi. Bildirdi ki, insan faktoruna ən böyük qiyməti elə dövlətimizin başçısı verib.

Müasir gəncliyin psixoloji durumundan söz açan alimə görə, 20 ildən artıq davam edən müharibə gənclərimizin psixologiyasına az təsir göstərməyib.

Daha sonra fəlsəfə elmləri doktoru, sosioloq Əhməd Məmmədov, professor Qorxmaz Vəliyev, dosent Müşviq Şükürov, Psixoloji sağlamlıq mərkəzinin əməkdaşı Gülnarə Musabəyova və başqaları çıxış edərək psixologiya elminin əsaslarından bəhs ediblər.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi vəzifəsini icra edən polkovnik Rüfət Əmirov isə öz çıxışında orduda şəxsi heyətin mənəvi-psixoloji durumunun daim diqqət çəkən məqamlardan olduğunu bildirib. Hərbi psixoloqlarla keçiriləcək toplantının başlıca məqsədi bu sahədə onların bilik və bacarıqlarını artırmaq, qabaqcıl təcrübəni yerlərdə tətbiq etməkdir.

Sonda peşəkar psixoloqların təkmilləşdirmə kursuna hazırlıqla bağlı müxtəlif fikirlər səsləndirilib və bu sahəyə aid olan tədris proqramının təkmilləşdirilməsi təklif olunub.

**Mayor
Bəxtiyar ƏLİYEV,
"Azərbaycan Ordusu"**

*Təlim*

# Hərbi dənizçilər tapşırıqların öhdəsindən bacarıqla gəlirlər



***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Hərbi Dəniz Qüvvələrində döyüş hazırlığı üzrə intensiv məşqlər keçirilir.***

***Müdafiə Nazirliyinin rəhbərliyi və Hərbi Dəniz Qüvvələrinin komandanlığı gəmilər və heyətlər tərəfindən qarşıya qoyulan döyüş tapşırıqlarının yerinə yetirilməsi səviyyəsi, döyüş manevretmə və idarəetmə, həmçinin qarşılıqlı əlaqə imkanlarını yoxlayır. Təlim-məşqlər Hərbi Dəniz Qüvvələrinin döyüş hazırlığı səviyyəsinin artırılması, o cümlədən Fövqəladə Hallar Nazirliyi və Dövlət Sərhəd Xidməti ilə birgə keçiriləcək təlimlərə hazırlıq məqsədini daşıyır.***

Dan yeri yenicə ağarırdı. Hava buludlu olsa da, dünəndən yağan yağışın nəmi hələ yerdən çəkilməmişdi. Xəzərin sahilində yerləşən limanda böyük bir canlanma vardı. Dəstə-dəstə körpülərdə yan alan gəmilərə sarı tələsən zabit, miçman və matrosların çöhrələrində bir sevinc vardı. Hərbi dənizçilərin döyüş təlimində iştirak etmək üçün körpüdə yan alan gəmilərdən birinə yaxınlaşanda, bizi birinci dərəcəli kapitan Natiq Bağırov qarşıladı. Zabit təlimə hazırlıqla bağlı bizə dolğun məlumat verdi.

Baş leytenant Zamiq Ağayevlə ləngimədən gəminin göyərtəsinə qalxdıq və matrosların səfərqabağı hazırlıqlarına diqqət yetirdik. Körpüdə və gəmilərdə iki-iki, üç-üç farağat dayanan matroslar verilən tapşırıqların icrasına başlayırdılar. Bir azdan gəmilər səfərə tam hazır olur.

İkinci dərəcəli kapitan Ramil Əsgərova təlimə cəlb olunan gəmilərin çıxışa hazır olması barədə raport verildi. Bir azdan gəmilər dənizin cənub istiqamətinə yol aldılar.

Gəmilərin hərəkət və istiqamətini daim diqqətdə saxlayan zabit R.Əsgərov tez-tez onların döyüş düzülüşünə nəzarət edir, sürət və ara məsafələrini müəyyənləşdirir. Bir qədər irəlidə qatı dumana bənzər tüstü göründü. Zabit R.Əsgərov bildirdi ki, şərti düşmən bizi görür və onun atəşindən yayınmaq üçün məhv edəcəyimiz hədəflərə doğru hərəkət edirik. Tüstü dənizdə döyüşə gedən gəmilər üçün ən mükəmməl təhlükəsiz manevrdir. Və döyüşçülərimiz də bu manevrdən vaxtında və yerində istifadə etməyi bacarırlar.



Burada gəmi komandirinin üzərinə daha böyük məsuliyyət düşür. Baş leytenant Kamal Ağalarov öz işini mükəmməl bilir. O, gəminin təyin edilmiş istiqamət üzrə hərəkətinə və müəyyən edilmiş məntəqəyə vaxtında çatmasına cavabdehdir. Buna görə də verdiyi komandaların icrasını daim diqqətdə saxlayır.



Gəminin idarə olunmasında şturmanın üzərinə də böyük məsuliyyət düşür. Leytenant Məhəmməd Ələkbərov naviqasiya təhlükəsizliyini təmin edir.

Çox keçmədi ki, müşahidəçi hədəflərin aşkar olunduğu barədə məlumat aldıq. Atıcı heyətlərə silahları dolduraraq atəşə hazır olmaları barədə komanda verildi. Heyətlər komandanı çevik yerinə yetirərək atışa hazır olduqları barədə məlumat verdilər. "Atəş" komandası ilə gəmilərdən atılan mərmilər hədəflərə kökləndi. Atəş uğurlu alınmışdı. Bir qədər irəlilədikdən sonra yenə aşkar olunan hədəfə atəş açıldı. Bu hədəf də məhv edildi. Beləliklə, gəmilərin döyüş-atışlı təlimi yüksək nəticələrlə yekunlaşdı.

Zabit Əfqan Ağayevin komandası altında şəxsi heyətin ərzaq təminatı da lazımınca təşkil olunmuşdu. Bu və digər təlimlərin uğurla yerinə yetirilməsi üçün arxa cəbhə təminatı sarıdan da heç bir çətinlik olmamalıdır. Əksinə, son vaxtlar bu sahədə ordu rəhbərliyi tərəfindən bir çox uğurlu tədbirlərin həyata keçirilməsi öz bəhrəsini verir.

Beləliklə, gəmilərin döyüş-atışlı daha bir təlimi uğurla başa çatdı. Və gəmilər heyətlərlə limana istiqamət aldı.

**Bəxtiyar MUSAOĞLU,
"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Ukraynanın cənubuna və şərqinə əlavə hərbi qüvvələr göndərilir



Ukrayna Prezidenti separatçıların mümkün hücumuna qarşı əlavə hərbi birləşmələr göndərilməsi barədə sərəncam verib. Milli Təhlükəsizlik və Müdafiə Şurasının iclasında çıxış edən Petr Poroşenko Mariupol, Berdyansk, Xarkov və Dnepropetrovsk şəhərlərinə edilə biləcək hücumların qarşısının alınacağını bildirib.

NATO-nun baş katibi Yens Stoltenberq Brüseldə keçirilən mətbuat konfransında Rusiya qoşunlarının yenidən Ukrayna ilə sərhədə cəmlənməyə başladığını təsdiqləyib.

Donetsk və Luqanskda üsyançılar tərəfindən keçirilən seçkilər regionda gərginliyin daha da artmasına səbəb olub. Rəsmi Kiyev seçkilərin Minks razılaşmasına zidd olduğunu bildirib.

Ukrayna hökuməti Donetsk və Luqanska xərclənən 2.6 milyard dollar məbləğində büdcə vəsaitini donduracağını açıqlayıb. Hökumətin bu addımını ruspərəst üsyançılara qarşı iqtisadi təzyiq vasitəsi kimi də görmək olar.

### Kobani uğrunda döyüşlər səngimir



Koalisiya qüvvələrinin havadan endirdiyi zərbələrə və İraq kürdlərinin Kobaninin müdafiəsinə qatılmasına baxmayaraq, İŞİD qruplaşması şəhərə hücumlarını davam etdirir. Peşmərgə qüvvələri inadla müdafiə olunur və şəhərin yaraqlıların əlinə keçməsinə imkan vermirlər.

Euronews telekanalı xəbər verir ki, son zamanlar aparılan hərbi əməliyyatlar nəticəsində Suriyadan qonşu Türkiyə ərazisinə 183 min insan keçib.

Bu arada rəsmi Paris koalisiya qüvvələrindən Suriyanın digər şəhərini - Hələbi də xilas etməyə çağırıb.

### Çin dronlar əleyhinə lazer qurğularını sınaqdan keçirib



Çin mütəxəssisləri kiçik pilotsuz uçuş aparatlarını məhv etmək üçün nəzərdə tutulan lazer qurğusunu uğurla sınaqdan keçiriblər. Çin Fizika Mühəndisliyi Akademiyasının mütəxəssisi bildirib ki, sistem 500 metrə qədər yüksəklikdə saniyədə 50 metr maksimal sürətlə hərəkət edən kiçik uçuş aparatlarını aşkar edəndən sonra beş saniyə ərzində həmin aparatları iki kilometr məsafədən vurmaq iqtidarındadır.

"China Jiuyuan Hi-Tech Equipment Corp" şirkətinin başçısı İ.Szinsun deyib: "Adətən bu cür uçuş aparatlarını vurmaq snayper və helikopterlərin vəzifəsidir, lakin onlar bu işin öhdəsindən gələ bilmir".

### Ukrayna hadisələri Rusiyaya qarşı sanksiyaların qaldırılmasını istisna edir



Ağ ev Ukraynanın şərqində vəziyyətin nizamlanmasına dair Minsk razılaşmasına əməl etməyəcəyi təqdirdə Rusiyanı yeni sanksiyalarla hədələyib. ABŞ Milli Təhlükəsizlik Şurasının nümayəndəsi Bernadett Mixen Moskvanın Minsk razılaşmasında üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyəcəyi, sabitliyi pozan və təhlükəli hərəkətləri davam etdirəcəyi halda, bunun ona baha başa gələcəyini bildirib.

Almaniya hökumətinin nümayəndəsi də bildirib ki, Ukraynanın şərqində baş verən hadisələr Avropa İttifaqının Rusiyaya qarşı sanksiyalarının aradan qaldırılmasını istisna edir. Ştefen Zaybert Berlində Rusiya hakimiyyətinin qondarma Donetsk və Luqansk "xalq respublikaları" ərazisində keçirilmiş seçkilərin nəticələrini tanımaq barədə verdiyi bəyanatı "başa düşülməyən addım" adlandırıb.

AzərTAc xəbər verir ki, Almaniya kansleri Angela Merkelin mətbuat katibi vəziyyətin pisləşəcəyi təqdirdə Avropa İttifaqının yeni sanksiyaların tətbiqi barədə müzakirələrə başlayacağı barədə də xəbərdarlıq edib.

### İran Urmiya gölünün bərpasına 225 milyon dollar vəsait ayırıb



Urmiya gölünün qurumasının qarşısını almaq üçün həyata keçiriləcək tədbirlər məqsədilə İranın dövlət büdcəsindən 225 milyon dollar vəsait ayrılıb. Kənd Təsərrüfatı Nazirliyinə gölün ətrafında müasir irriqasiya sistemi inşa etmək tapşırılıb.

Xatırladaq ki, 1995-ci ildən başlayaraq Urmiya gölü qurumağa başlayıb. Mütəxəssislərin rəyinə görə, gölün suyu 70 faiz azalıb.

### "Aeromobil 3.0" uçan avtomobili təqdim edilib



Vyanada Slovakiyanın "Aeromobil" şirkəti tərəfindən hazırlanmış "Aeromobil 3.0" uçan avtomobilinin dünya premyerası keçirilib. Cəmi 400 kiloqram ağırlığında olan aeromobil dayanmadan 700 kilometrədək məsafəni qət edə bilir. Minik vasitəsi həm avtomobil yollarında hərəkət, həm də havada uçuş üçün nəzərdə tutulub.

Aeromobilin ixtiraçısı Yuraj Vaçulik prototipin təqdimatı zamanı bildirib ki, üzərində 30 il əmək sərf olunan yeni nəqliyyat vasitəsi insanların mobilliyinin forma və tərzini tamamilə dəyişməyə xidmət edəcək. Aeromobil saatda maksimum 200 kilometr sürətlə uça bilir və bu zaman 15 litr normal benzin sərf edir. Minik vasitəsinin havaya qalxması üçün isə cəmi 200 metrlik açıq sahə kifayət edir.

Bütün bu proseslər uğurla başa çatarsa, aeromobilin ilk nümunələri artıq 2016-cı ildən satışa çıxarılacaq.

**Hazırladı:
Ə.MƏHƏRRƏMOĞLU**

*Yazıçı ilə görüş*

# "Hər kəs öz xalqı və əsgəri ilə öyünməlidir"

***Neçə yüz illər əvvəl əcdadlarımız Qobustan qayalarında rəsmlər çəkmişdi - təfəkkürünü, mədəni varlığını ifadə eləmişdi. Halay vuranda nəğmələr oxumuşdu - özünü ifadə eləmişdi. Dədə Qorquddan, Həsənoğludan üzü bu yana yazılı sözə yaşam verdi - sözünü təsdiq elədi...***



Azərbaycan ədəbi fikir tarixi çox qədimlərlə səsləşir, bu günəcən gəlib çatır. O ədəbi fikir müstəvisində çağdaş ələbiyyatımızın boyu aydınlığı ilə görünür, seçilir.

Çağdaş Azərbaycan ədəbiyyatının öncüllərindən olan xalq yazıçısı, "Şöhrət" ordenli Çingiz Abdullayevin imzası səmimiyyətlə etiraf olunur və dünyanın hər yerində tanınır.

Bu günlərdə Azərbaycan Yazıçılar Birliyinin katibi Çingiz Abdullayevin Hərbi Dəniz Qüvvələrinin zabitləri ilə görüşünün başlıca qayəsi vətəndaşlıq, azərbaycançılıq idi.

Görüşü giriş sözü ilə Mərkəzi Zabitlər Evinin mədəni-bədii iş bölməsinin müdiri Gülxar Məmmədova açdı. O, dünyəvi ədəbi fikrin cəfakeşlərindən biri olan yazıçının heyrətləndirici yaradıcılığından, yaratdığı obrazlardan, xarakterlərdən və s. söz açaraq qeyd etdi ki, bu görüş çağdaş ədəbiyyatımızı beynəlxalq aləmdə uğurla tanıdan ədiblərdən biri kimi Çingiz Abdullayevi yaxından tanıtma missiyasının nəticəsidir. İnsan, sənətkar kimi, sənətkar şəxsiyyət kimi tanıdılanda, bu ünsiyyət daha səmimi olur. G.Məmmədova onu da bildirdi ki, bu görüş dənizçi-zabitlərin yaddaşından illərlə silinməyəcək. Əsərlərini böyük sevgilərlə oxuduqları yazıçının səmimi söhbətlərini özlərinin həyat amalına çevirəcəklər.

Xalq yazıçısı Çingiz Abdullayev isə öz çıxışında öncə Hərbi Dəniz Qüvvələrinin komandanlığına təşəkkürünü bildirdi. Səmimi görüşün səmimiyyəti sezilirdi bu təşəkkürdə. Ali hüquq təhsili alan, uzun müddət həsəd aparılası vəzifələrdə xidmət edən, işləyən, bədii təxəyyülünü əsərlərə çevirən böyük söz adamının fikirləri, şübhəsiz ki, toplaşanların marağına səbəb olacaqdı.

Yazıçı söhbətində maraqlı bir fikir səsləndirdi: intellekt çox şeyin açarıdır, Arximed qüvvəsidir. Hər sahədə olduğu kimi, hərbi sahədə də intellekt məfhumu aparıcıdır, intellekt yoxsa, ordu yoxdur. Bu tezis hərbi təhsilin daha da yüksəldilməsinin - zabit kadrları hazırlığının səviyyəsinin vacibliyini xatırlatma kimi qəbul edilməlidir. Bu fikir Müdafiə naziri general-polkovnik Zakir Həsənovun "Ən güclü silah yaxşı öyrədilmiş əsgərdir" fikri ilə səsləşir, əsgərin bacarıqlı döyüşçü kimi formalaşmasında mükəmməl təhsil almış zabitin rolu danılmazdır.

Yazıçı dövlətin, dövlətçiliyin söz daşıyıcısı olmalıdır. Yazıçı xalqdan və deməli, ordudan, əsgərdən uzaq düşməməlidir...

Görüşdə xalq yazıçısı zabitlərin suallarını da ətraflı cavablandırdı.

Tədbirin sonunda hörmətli qonağa dəvəti qəbul etdiyinə, zabitlərlə görüşdüyünə və maraqlı söhbətə görə təşəkkür bildirildi.

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

## Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*
***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Ermənistan Respublikası Silahlı Qüvvələrinin Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində hərbi təlimlərə başlaması rəsmi Yerevanın hərbi-siyasi rejiminin ölkəmizə qarşı yürütdüyü işğalçılıq siyasətinin növbəti mərhələsidir.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi rəsmi olaraq bildirir ki, Ermənistan Respublikası torpaqlarımızın işğal olunmasına bilavasitə cavabdehlik daşıyır və gələcəkdə regionda baş verə biləcək hər hansı hadisəyə görə məsuliyyət tamamilə və qeyd-şərtsiz Yerevan rəhbərliyinin üzərinə düşür.

* * *

***7 noyabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 33 dəfə pozulub.

Ağdam rayonunun Mərzili, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Aşağı Əbdürrəhmanlı, Goranboy rayonunun Tapqaraqoyunlu kəndləri yaxınlığında, həmçinin Goranboy və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

# Naxçıvanda yerləşən hərbi hissələrin bədii kollektivlərinin yaradıcılıq qabiliyyətlərinə baxış keçirilib





***Naxçıvan Qarnizonunun Zabitlər Evində Əlahiddə Ümumqoşun Ordusunun tabeliyində olan hərbi hissələr arasında "Bədii özfəaliyyət kollektivlərinin yaradıcılıq qabiliyyətlərinə baxış" müsabiqəsi keçirilib.***

Müsabiqə Müdafiə Nazirliyinin 2014-cü tədris ilinin hazırlıq planına və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin "Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" sərəncamına uyğun olaraq keçirilib.

Müsabiqənin keçirilməsində məqsəd hərbi qulluqçuların yaradıcılıq qabiliyyətlərinin daha da inkişaf etdirilməsi və hərbi qulluqçular tərəfindən ifa olunan hərbi vətənpərvərlik mahnılarının geniş təbliğ olunmasıdır.

Müsabiqədə daha aktiv iştirak edərək yüksək yer tutanlar fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Azərbaycanın suverenliyinə hörmət olmadan Dağlıq Qarabağ münaqişəsinin həlli mümkün deyil

***Böyük Britaniyanın Avropa məsələləri üzrə naziri Devid Lidinqton noyabrın 5-də ADA Universitetinin müəllim və tələbə heyəti qarşısında etdiyi məruzədə əsas diqqəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yönəldib. Nazir deyib ki, Azərbaycanın suverenliyinə hörmət olmadan Dağlıq Qarabağ münaqişəsinin həlli mümkün deyil.***

AzərTAc xəbər verir ki, D.Lidinqton münaqişənin sülh yolu ilə həllinə ümidvar olduğunu bildirib.

Qaçqın və məcburi köçkün probleminin hələ də davam etməsindən təəssüfləndiyini bildirən nazir münaqişənin həllinin insanların doğma torpaqlarına geri qayıtmaları üçün imkan yaradacağını diqqətə çatdırıb. O əlavə edib ki, problemin həlli Avropa ilə Asiya arasında körpü rolunu oynayan Cənubi Qafqazın iqtisadi inkişafını da sürətləndirəcək.

D.Lidinqton Azərbaycan ilə Böyük Britaniya arasında qarşılıqlı hörmətə əsaslanan əlaqələrin yüksək səviyyədə olduğunu söyləyib.

"Gündən-günə inkişaf edən Azərbaycan ilə əlaqələrin inkişaf etdirilməsi Böyük Britaniya və Avropa İttifaqı üçün vacibdir", - deyən nazir vurğulayıb ki, Azərbaycanda ən iri sərmayə yatıran ölkələrdən biri olmaq Birləşmiş Krallıq üçün çox xoşdur. D.Lidinqton, həmçinin Azərbaycandan Böyük Britaniyaya təhsil almağa gedən tələbələrin sayının artdığını söyləyib.

Ölkəmizə ikinci dəfə səfər etdiyini bildirən D.Lidinqton Bakıda sürətli inkişaf proseslərinin şahidi olduğunu qeyd edib.

Sonda nazir tələbələrin suallarını cavablandırıb.

# Dağlıq Qarabağ münaqişəsinin həlli bütün Avropa üçün çox vacibdir

Böyük Britaniyanın Avropa məsələləri üzrə naziri Devid Lidinqton "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi idarə heyətinin sədri Bayram Səfərovla görüşündə deyib ki, Dağlıq Qarabağ münaqişəsinin həlli rəsmi London, eləcə də bütün Avropa üçün çox vacib məsələdir. O vurğulayıb ki, Böyük Britaniya münaqişənin tez bir zamanda sülh yolu ilə həllinin tərəfdarıdır və bu istiqamətdə danışıqların davam etdirilməsi zəruridir.

İctimai Birlikdən AzərTAca verilən məlumata görə, Dağlıq Qarabağın azərbaycanlı icmasının rəhbəri Bayram Səfərov görüşdə bildirib ki, münaqişənin həlli ilə bağlı qətiyyət nümayiş etdirməli olan qurumların ikili standartları hələ də davam edir. B.Səfərov qeyd edib ki, münaqişənin tezliklə beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə həlli vacibdir və biz bu istiqamətdə beynəlxalq qurumlardan qətiyyətli mövqe gözləyirik. Azərbaycan sülh tərəfdarıdır, biz həm öz ölkəmizdə, həm Cənubi Qafqaz regionunda, həm də bütün dünyada sülh istəyirik.

Görüşdə Milli Məclisin deputatı Elman Məmmədov deyib ki, Böyük Britaniyanın bu münaqişənin həllində daha yaxından iştirak etmək istəməsi müsbət haldır. Münaqişənin həlli üçün Böyük Britaniyanın dəstəyi və səyi nəticəsində icmalararası dialoqların təşkili, bu istiqamətdə mövcud proqram və layihələrdə tərəflərin daha fəal iştirakının təmin olunması vacibdir.

*Qabaqcıl təcrübə*

# Bacarıqlı sürücü



***Tarix boyu texnika inkişaf edib və bu inkişaf nəticəsində avtomobil də yaranıb. Hər bir sahədə olduğu kimi, hərb sahəsində də avtomobilə daim böyük ehtiyac duyulub. 1769-cu ildə fransız ixtiraçısı Kuno (Nicholas Cugnot) ilk dəfə olaraq buxarla işləyən hərbi avadanlıqları dartmaq üçün üç təkərli arabanı ixtira edib. Onun bu maşınını nəinki avtomobilin, hətta parovozun əcdadı hesab edirlər.***

Avtomobil yaranan gündən onu idarə edən insanlara da ehtiyac duyuldu. Avtomobili idarə etmək xüsusi bacarıq və səriştə tələb edir. Buna görə də bütün ölkələrdə sürücülük kursları yarandı. Sürücülük kurslarını bitirən şəxslər imtahanlardan sonra sürücülük vəsiqəsinə sahib olurlar. Sürücülük vəsiqəsi isə hər hansı şəxsin nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən vacib sənəddir.

Bu imtahanlardan uğurla keçən və sürücü vəzifəsinə təyin olunanlardan biri də "N" hərbi hissəsində müddətdən artıq xidmət keçən əsgər Nicat İbrahimovdur. N.İbrahimov hərbi hissədə sanitar-sürücüdür. O, avqustun 1-dən 2-nə keçən gecə cəbhə xəttində baş verən hadisələr zamanı yaralı əsgərlərimizi çox qısa vaxtda hospitala çatdırmışdı. Əsgərlərin sağ qaldığını eşidəndə isə sevincinin həddi-hüdudu olmamışdı.

1999-2000-ci illərdə "N" hərbi hissəsində əsgəri xidmətini başa vurmuş Nicat İbrahimovun sözlərinə görə, sürücü avtomobilini daim saz saxlamalı, texniki vəziyyətini vaxtaşırı yoxlamalıdır. Bir sözlə, hərbi sürücü ona təhkim olunan avtomobilin hər an döyüşə hazır vəziyyətdə olması üçün əlindən gələni etməlidir.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# İdman

## "Bakı-2015" Yaponiyanın yayım şirkəti ilə müqavilə imzalayıb

"Bakı-2015" gələn ilin yayında keçiriləcək I Avropa Oyunlarının Yaponiyada yayımlanması məqsədilə Tokio TBS televiziyası ilə noyabrın 5-də müqavilə imzalayıb.

Bu, "Bakı-2015" tərəfindən Ərəb Dövlətlərinin Yayım Birliyi ilə bağlanmış sazişdən sonra imzalanan növbəti müqavilədir. Həmin sazişlərə görə, Avropa Oyunları Orta Şərq və Şimali Afrika üzrə 20 ölkədə, eyni zamanda, "L'Equipe 21" kanalı ilə Fransada yayımlanacaq.

"Bakı-2015" Avropa Oyunları Əməliyyat Komitəsinin kommersiya şöbəsinin direktoru Çarli Viceratna bildirib ki, bu sazişlər, birinci Avropa Oyunlarının dünyanın beş qitəsində yayımlanmasını təmin etmək üçün mühüm addımdır.

## Kikboksçularımızdan dünya çempionatında möhtəşəm qələbə



Kikboksinqin WKA versiyası üzrə İtaliyanın Karrara şəhərində keçirilən dünya çempionatında yığma komandamız müxtəlif versiyalar üzrə 15 medal qazanıb.

Eduard Məmmədov (60 kq), Elnur Dəryagül (63,5 kq), Azər Həsənov (74 kq), Zaur Yusifov (91 kq), Vüqar Cavadov (91 kq), Xətai Qurbanov (81 kq) və Qalib Məmmədov (91 kq) fəxri kürsünün ən yüksək pillələrinə qalxıblar.

Kikboksçularımız, həmçinin dörd gümüş və dörd bürünc medal qazanıblar.

## Altı boksçumuz Avropa birinciliyinin dörddəbir finalına vəsiqə qazanıb



Rusiyanın Anapa şəhərində boks üzrə yeniyetmələrin Avropa birinciliyinin səkkizdəbir final mərhələsində Bəxtiyar Qazıbəyov (57 kq) İngiltərə idmançısı Rayan Qarneri məğlub edib - 2:1. Pərviz Quliyev (63 kq) Gürcüstan təmsilçisi Sekerxan Madiyev üzərində qələbə qazanıb - 3:0.

Yarışda 80 kq-dan yuxarı çəki dərəcəsində mübarizə aparan Məhəmməd Abdullayev artıq yarımfinala vəsiqəni təmin edib.

Dörddəbir finaldakı boksçularımızdan Ruslan Rüstəmov (46 kq) Pavel Ryasni (Rusiya), Malik Həsənov (48 kq) Nikita Piskunov (Rusiya), Rasim Çobanlı (70 kq) Nikita Krasnabayev (Belarus), Hacı Dilbazov (75 kq) isə İvan Çubrevçev (Ukrayna) ilə qarşılaşacaqlar.

## Çində idmançılarımız veloyürüşdə ikinci sıradakı mövqeyini qoruyur



"Synergy Baku" Çində keçirilən sayca 5-ci "Tour of Taihu Lake" yürüşündə çıxışını davam etdirir. Azərbaycan Velosiped İdmanı Federasiyasından AzərTAc-a bildiriblər ki, bu gün keçirilən beşinci mərhələdə iştirakçılar 129 kilometr məsafə qət ediblər.

Dördüncü mərhələdə olduğu kimi, bu dəfə də velosipedçilərimizdən ən yüksək nəticəyə Maksim Averin imza atıb. O, finişi mərhələ qalibi ilə eyni vaxtda keçib və foto finişə əsasən 7-ci olub - 2 saat 51 dəqiqə 37 saniyə. Digər təmsilçilərimiz - Aleksandr Surutkoviç, Elçin Əsədov, İsmayıl İlyasov, Samir Cəbrayılov və Ənvər Asanov mərhələni ilk pelotonda başa vurublar.

Komanda hesabında "Synergy Baku" ikinci yerdəki mövqeyini qoruyur.

## Həmvətənimiz Murmansk çempionatının qalibi olub



Rusiyanın Murmansk şəhərində gənc və yaşlı boksçular Sovet İttifaqı Qəhrəmanı Anatoli Bredovun xatirəsinə həsr olunmuş 30-cu beynəlxalq turnir keçiriblər. Yarışda azərbaycanlı dəri əlcək ustası da mübarizə aparıb. 1998-1999-cu il təvəllüdlü yeniyetmələr arasında 75 kiloqram çəki dərəcəsində həmvətənimiz, Murmansk vilayətinin Monçeqorsk şəhərindən olan Ruslan Fətullayev rinqdə bütün rəqiblərini məğlub edərək turnirin qalibi olub.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 365
Nüsxə 4570